RSM Azerbaijan
Demirchi Tower 21st floor,
37 Khojaly ave, AZ1025,
Baku, Azerbaijan
T +994(12) 480 4571
F +994(12) 480 4563
www.rsm.az

# 31 DEKABR 2016-CI İL TARİXİNƏ İLKİN MALİYYƏ HESABATLARI ÜZRƏ MÜSTƏQİL AUDİTORUN XÜSUSİ MƏQSƏDLİ HESABATI

"Günay Sığorta" ASC -nin rəhbərliyi və səhmdarlarına:

*Maliyyə hesabatları haqqında hesabat*

Biz "Günay Sığorta" ASC-nin ("Şirkət") 31 dekabr 2016-cı il tarixinə təqdim edilən ilkin maliyyə vəziyyəti haqqında hesabatı və həmin tarixə tamamlanan il üzrə ilkin məcmu gəlir hesabatı, ilkin kapitalda dəyişikliklər haqqında hesabat və ilkin pul vəsaitlərinin hərəkəti haqqında hesabatdan, eləcə də əsas uçot siyasətlərinin və digər izahedici qeydlərin xülasəsindən ibarət olan maliyyə hesabatlarının audit yoxlamasını apardıq. Bu maliyyə vəziyyəti haqqında ilkin hesabat Şirkətin Beynəxalq Maliyyə Hesabatı Standardlarına keçidi üçün hazırlanmışdır.

*Maliyyə hesabatlarının hazırlanması üzrə rəhbərliyin məsuliyyəti*

Hazırkı ilkin maliyyə hesabatlarının 4 saylı Qeydində vurğulandığı kimi Beynəlxalq Maliyyə Hesabatı Standartlarına keçid prinsiplərinə uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə görə Rəhbərlik məsuliyyət daşıyır. Bu məsuliyyətə aşağıdakılar aiddir: maliyyə hesabatlarının hazırlanması ilə əlaqədar, saxtakarlıq və ya yanlışlıqdan qaynaqlanan əhəmiyyətli kənarlaşmaların qarşısını almaq məqsədilə daxili nəzarət sisteminin işlənib hazırlanması, qurulması və möhkəmləndirilməsi, müvafiq mühasibat siyasətinin seçilməsi və tətbiq edilməsi, mövcud şərtlər əsasında məqbul mühasibat təxminlərinin irəli sürülməsi.

*Auditorun məsuliyyəti*

Bizim məsuliyyətimiz, apardığımız audit yoxlamasına əsasən bu maliyyə hesabatlarına dair rəy bildirməkdən ibarətdir. Tərəfimizdən aparılmış audit yoxlamasının Beynəlxalq Audit Standartlarına uyğunluğunu təsdiq edirik. Həmin standartların tələbinə görə, biz etik tələblərə əməl etməli və auditi elə şəkildə planlaşdırmalı və aparmalıyıq ki, maliyyə hesabatlarında əhəmiyyətli təhriflərin mövcud olmamasına kifayət qədər əmin olaq.

Audit yoxlamasına maliyyə hesabatlarındakı məbləğlər və açıqlamalara dair auditor sübutu əldə etmək üçün müvafiq prosedurların yerinə yetirilməsi daxildir. Seçilmiş prosedurlar auditorun mülahizəsindən, eləcə də saxtakarlıq və ya səhvlər nəticəsində maliyyə hesabatlarının əhəmiyyətli dərəcədə təhrif edilməsi risklərinin qiymətləndirilməsindən asılıdır. Həmin riskləri qiymətləndirərkən auditor Şirkətin daxili nəzarət sisteminin effektivliyinə dair rəy bildirmək üçün deyil, şəraitə görə müvafiq audit prosedurlarının işlənib hazırlanması məqsədilə Şirkət tərəfindən maliyyə hesabatlarının hazırlanması və düzgün təqdim edilməsi üçün müvafiq daxili nəzarət sistemini nəzərdən keçirir. Bundan əlavə, audit yoxlamasına mövcud uçot siyasətinin uyğunluğunun və rəhbərliyin uçot təxminlərinin əsaslandırılmasının qiymətləndirilməsi, eləcə də ilkin maliyyə hesabatlarının ümumi təqdimatının dəyərləndirilməsi daxildir.

Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutu auditor rəyinin bildirilməsi üçün yetərli və müvafiq əsası təmin edir.



RSM Azerbaijan is a member of the RSM network and trades as RSM. RSM is the trading name used by the members of the RSM network. Each member of the RSM network is an independent accounting and consulting firm which practices in its own right. The RSM network is not itself a separate legal entity in any jurisdiction.

RSM

*Rəy*

Bizim rəyimizcə, BMHS 1 "Beynəlxalq Maliyyə Hesabatı Standartlarının ilk dəfə tətbiq edilməsi" üzrə BMHS əsasında necə tətbiq edilməsini, həmçinin, 31 dekabr 2016-cı il tarixinə BMHS-ə uyğun hazırlanmış maliyyə hesabatlarının ilk tam toplusu rəhbərlik tərəfindən hazırlandığı zaman qüvvədə olması gözlənilən standart və şərhlər, həmçinin qəbul edilməsi gözlənilən qaydalar haqqında Rəhbərliyin fərziyyələrini təsvir edən 4-cü Qeyddə göstərilən əsasa uyğun olaraq hazırlanmış ilkin maliyyə hesabatları, 31 dekabr 2016-cı il və 1 yanvar 2016-cı il tarixinə Şirkətin maliyyə vəziyyəti və 31 dekabr 2016-cı il tarixinə tamamlanan il üzrə əməliyyatlarının nəticələrini və pul vəsaitlərinin hərəkətini bütün əhəmiyyətli aspektlər baxımından əks etdirir.

*İzahedici bölmə*

Rəyimizdə şərt bildirmədən biz diqqəti BMHS-ə uyğun yekun maliyyə hesabatlarına çevrilənə qədər ilkin maliyyə hesabatlarında düzəlişlərin aparıla bilməsinin səbəblərini izah edən ilkin maliyyə hesabatlarına dair 4-cü Qeydə cəlb edirik. Bundan əlavə, diqqətinizi bu fakta cəlb edirik ki, BMHS-ə uyğun olaraq, yalnız müqayisəli maliyyə məlumatı və izahlı qeydlər daxil olmaqla maliyyə hesabatlarının tam toplusu Şirkətin maliyyə vəziyyətinin, əməliyyatlarının nəticələrinin və pul vəsaitlərinin hərəkətinin BMHS əsasında düzgün əks etdirilməsini təmin edə bilər.

*Hesabatın istifadəsi*

Bu xüsusi məqsədli auditor hesabatı ancaq məlumat xarakteri daşıyır və rəhbərliyin istifadəsi üçün Beynəlxalq Maliyyə Hesabatı Standartlarına əsasən tərtib olunmuşdur. Bu maliyyə hesabatı başqa bir məqsədlə istifadə edilə bilməz və heçbir üçüncü tərəfə təqdim edilə bilməz.

30 mart 2017-ci il

Azərbaycan Respublikası, Bakı

RSM Azerbaijan